# Qazanılmış uğurların davamlılığı təmin ediləcək

Müstəqil Azərbaycan Respublikasının gömrük xidmətinin yaradılmasının 24 illiyi tamam olur. Deyə bilərik ki, Azərbaycanda uğurlu gömrük siyasətinin təməlinin qoyulduğu, ümumdünya gömrük sisteminə inteqrasiya istiqamətində uğurlu addımların atıldığı çətin və şərəfli illər arxada qalmışdır.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan dövlətinin iqtisadi təhlükəsizliyinin qorunmasının və daha da möhkəmləndirilməsinin əsas istiqamətlərindən birini yüksək səviyyəli gömrük xidmətinin yaradılmasında görürdü. Məhz onun uzaqgörən siyasəti, gömrük sisteminin formalaşması üçün verdiyi dəyərli tövsiyələri və bu qurumun daha da modernləşməsinə yönələn iqtisadi siyasəti nəticəsində Azərbaycanda dünya standartlarına uyğun gömrük xidməti formalaşmışdır.

Bu gün Azərbaycan Gömrük Xidməti mükəmməl hüquqi bazaya, inkişaf etmiş infrastruktura malik olmaqla, ölkədə fiskal siyasəti həyata keçirir, onun quru, hava və dəniz yollarında respublikanın iqtisadi mənafeyini və təhlükəsizliyini qoruyur, qaçaqmalçılığa qarşı uğurla mübarizə aparır.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin davamlı və dayanıqlı sosial-iqtisadi inkişafının təmin edilməsi, dövlət idarəçiliyinin müasir prinsiplər əsasında həyata keçirilməsi məqsədilə mühüm tədbirlər görülmüşdür. Dövlət başçısı respublikamızda hər bir sahədə olduğu kimi, gömrük sisteminin də bütün istiqamətlər üzrə daha da təkmilləşdirilməsi işini daim diqqət mərkəzində saxlayır və müvafiq işlərin həyata keçirilməsi davam etdirilir.

Azərbaycan Gömrük Xidməti dinamik inkişaf edir və yeni müasir layihələr həyata keçirməklə beynəlxalq standartlara cavab verən nümunəvi təşkilat kimi inamla irəliləyir. İlbəil uğurlara imza atan Dövlət Gömrük Komitəsi və onun yerli orqanları üçün ötən 2015-ci il də əlamətdar olmuşdur.

"Qəbələ" gömrük postunun kollektivi də ötən il qarşıda duran vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün bütün bacarıq və imkanlarını əsirgəməmişdir.

Azərbaycan Respublikası Prezidentinin sahibkarlığın inkişafı ilə bağlı verdiyi tapşırıq və tövsiyyələr idarəmizin əməkdaşları tərəfindən layiqincə yerinə yetirilmişdir. "Qəbələ" gömrük postunun fəaliyyət zonasında sahibkarlıqla məşğul olan hüquqi və fiziki şəxslərlə mütəmadi olaraq görüşlər keçirilmişdir.

"Qəbələ" gömrük postu 2015-ci ilin fəaliyyət dövrünü uğurla başa vurmuşdur. Respublikada ilk dəfə olaraq ölkəmizlə Türkmənistan Respublikası arasında bağlanmış müqaviləyə əsasən 224 baş iribuynuzlu düyənin (simmental sortu) ixracı nəzərdə tutulmuşdur. Bundan 32 başı artıq ixrac olunmuşdur.

Qəbələ gömrük postunda 120 ixrac əməliyyatı olmuşdur. İxrac əməliyyatının mal dövriyyəsi 935.454.466 ABŞ dolları olmuşdur. Həmin dövrdə ixrac əməliyyatlarından 4.350.660 AZN gömrük yığımları və rüsumları toplanmış və dövlət büdcəsinə daxil olmuşdur. Bu dövrdə eyni zamanda 982 idxal əməliyyatı yaranmışdır. İdxal əməliyyatları zamanı mal dövriyyəsinin həcmi 5.931.708 ABŞ dolları təşkil etmişdir. Həmin dövrdə idxal əməliyyatlarından 1.836.485.08 AZN yığılaraq respublika büdcəsinə keçirilmişdir.

2015-ci ildə idarəmizin fəaliyyəti ölkə Prezidenti İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmiş və əməkdaşlarımız «dövlət qulluğunda fərqlənməyə görə medalı ilə» təltif edilmişdir. Dövlət Gömrük Komitəsinin sədri tərəfindən bəzi əməkdaşlarımız Azərbaycan Respublikası gömrük işini aparan icra orqanının fəxri fərmanı, «Gömrük Orqanlarında Xidmətə Görə» 3-cü dərəcəli döş nişanı və xüsusi rütbələrlə mükafatlandırılmışdır.

Sonda qeyd edək ki, dövlətimizin iqtisadi mənafeyini qoruyan peşə sahibləri kimi "Qəbələ" gömrük postunun şəxsi heyəti bundan sonra da gömrük orqanlarının strateji missiyasını təşkil edən büdcə gəlirlərinin formalaşdırılması ilə yanaşı, gömrük nəzarətinin effektivliyinin artırılmasını, gömrük xidmətində hüquqpozmalara qarşı mübarizə sahəsindəki fəaliyyətlərini daha da gücləndirəcək, qarşıda duran vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün bütün imkanları səfərbər edəcək, qazanılmış uğurların davamlılığının təmin edilməsi üçün bilik və bacarıqlarını əsirgəməyəcəkdir.

**Yevlax Gömrük İdarəsi Qəbələ Gömrük Postu.**

# Vanqadan qorxunc proqnozlar

Böhran, çətinliklərlə yadda qalan 2015-ci ilin bitməsi, yeni 2016-cı ilin gəlişi insanlara yeni ümid bəxş edib. Dünyada son zamanlar hökm sürən gərginliklər, böhranlar diqqətləri illər öncə yaşamış məşhur ekstrasens və öncəgörənlərin—Vanqa, Nostradamus kimi şəxslərin proqnozlarına yönəldib. Bəs əvsanəvi öncəgörən Vanqa 2016-cı il barədə nə deyib?

O. proqnozlarında 2016-cı ildə ekstremistlərin kimyəvi silahlardan istifadə edərək Avropaya böyük miqyaslı hücum edəcəyindən xəbər verir. Bolqar qadın bu il terrorçuların və terror qruplaşmalarının sayının artmaqda davam edəcəyini, ABŞ, Fransa və Böyük Britaniyanın apardığı mübarizəyə baxmayaraq, terrorçuların gücünün daha da artacağını xəbər verib. 1911-ci ildə anadan olan bolqar Vanqiliya Pandeva-Quşerovanın gələcəkdə baş verəcək hadisələr haqqında dəqiq məlumat verməsi onu bütün dünyada məşhur edib. Onun verdiyi xəbərlərin dəqiqliyini ekspertlər 85 faiz doğru qiymətləndirirlər. O, 2001-ci il 11 sentyabrda ABŞ-da «baş verən qanlı terror aktı, iqlim dəyişikliyi, 2004-cü ildə İndoneziyada baş verən dəhşətli sunami, ABŞ prezidentinin qaradərili seçiləcəyini öncədən görüb. Sonuncu fakt haqqında o, 1989-cu ildə xəbər verərək əlavə edib ki, qaradərili namizəd ABŞ-ın son prezidenti olacaq. Hələ 1950-ci ildə məşhur öncəgörən Vanqa qlobal istiləşmə haqqında məlumat verməşdi. Alimlər yalnız 50 ildən sonra Yer kürəsinin iqlim sistemində temperaturun artması ilə bağlı dünyanı təhlükə gözlədiyini qeyd ediblər. Onun verdiyi proqnozlardan biri isə «Böyük Müsəlman Müharibəsi»nin başlayacağı haqdadır. Belə ki, o, müharibənin Suriyada başlayacağı və paytaxtı Roma olan xilafətin qurulması ilə 2043-cü ildə sona çatacağını xəbər verib. 2018-ci il-Çin yeni dünya gücünə çevriləcək. 2023-cü il dünya oxu yüngülcə yerindən oynayacaq. 2025-ci il-Avropa hələ də boşalır. 2028-ci il--yeni enerji mənbəyi tapılacaq. Aclıq problemi olmaqdan çıxacaq. Veneraya pilotlu kosmik gəmi göndəriləcək. 2033-cü il--qütb buzları əriyəcək. Okeanın səviyyəsi artacaq. 2043-cü il müsəlman bir dövlət yenidən Avropanın tək hakimi olacaq. 2046-cı il süni orqanlar hazırlanacaq. Orqan dəyişdirilməsi əsas müalicə üsulu olacaq. 2066-cı il--müsəlmanların əlində olan Romaya hücum zamanı ABŞ iqlim dəyişikliyinə yol açan silahdan (ani donma) istifadə edəcək. 2088-ci il yeni xəstəlik--insanlar saniyələr ərzində yaşlanacaq. 2091-ci il xəstəliyin müalicəsi tapılacaq. 2100-ci il insan tərəfindən hazırlanan günəş dünyanın qaranlıq tərəfini də işıqlandıracaq.

Əfsanəvi öncə-görücüsü 1996-cı ilin avqustunda dünyasını dəyişib.

**Aslan Cəlilov.**

# Bu düşündürücü

Ta qədimdən, insan dünyaya gələndən tarixin müəyyən mərhələlərində qadına, qız uşağına hüquqsuz varlıq münasibəti bəslənmiş, qız uşaqlarının doğulması ailədə uğursuzluq kimi qiymətləndirilmiş, onlar bəzən körpəykən öldürülmüş, diri-diri basdırılmışdır. Eramızın ilk illərində qərbdə səmavi din olan xristianlığın yayılması həmin ərazilərdə bu prosesin qarşısını müəyyən qədər olsa da, bütə tapınan şərq ölkələrində bu vəhşi cahiliyyə əməli islam dininin təşəkkülünə qədər davam etmişdir.

İslam dininin yayılması qadına, qız uşağına olan münasibəti dəyişib, qadın cəmiyyətin tam hüquqlu üzvünə çevrilmişdir. Bir vaxt kölə, adi bir əşya münasibəti bəslənən qadını, ananı Həzrəti Peyğəmbərin «Cənnət anaların ayaqları altındadır» kəlamı müqəddəsləşdirmişdir. Qurani-Kərimdə qadın hüququnu Allah kəlamı ilə qoruyan çoxsaylı ayələr vardır. Qız uşaqlarının məhv edilməsi kimi cahiliyyə adətləri şəriət qanunlarına görə qadağan olunaraq, ən böyük günahlara aid edilmişdir.

Ancaq...

Elmin və texnikanın sürətli inkişafı, sözsüz ki, bir çox sahələrdə insanlara daha yüksək həyat səviyyəsi, yüksək rifah rahatlıq gətirir. Onları ağır fiziki əməkdən qurtarır. Ağır fiziki əmək zahirən yüngül görünən zehni əməklə əvəz olunur. İnsan böyük Azərbaycan şairi və filosofu İmadəddin Nəsiminin dediyi kimi «bu cahana sığmır», başqa planetlərdə yaşayış üçün əlverişli şərait axtarır. Tibb sahəsindəki yeniliklər, kəşflər insanların daha sağlam və uzun ömür sürməsinə yarayır. Bununla belə elmin bəzi sahələrinin inkişafını insanlar bilərəkdən və ya bilməyərəkdən özlərinə qarşı çevirirlər. Dünyanı dəfələrlə dağıtmağa qadir olan kütləvi qırğın silahları insanın özünün kəşf etdiyi bəladır. Çox təəssüf ki, bu bələ tək deyil. Tibb elminin inkişafı sayəsində ana bətnində dünyaya gələcək uşaqların cinsiyyətinin müəyyən edilməsi də artıq bəşəriyyəti gələcəyinin təhlükəyə düşməsinə səbəb olmuşdur. Belə ki, bir çox ölkələrdə uşaqların cinsiyyətinin əvvəlcədən müəyyən edilməsi və əsasən qız uşaqlarının ana bətnindəcə məhv edilməsi qız uşaqlarının sayının oğlan uşaqlarına nisbətən kəskin şəkildə azalmasına səbəb olmuşdur. Təəssüf ki, yeni doğulan uşaqlarda qızların oğlanlara nisbətdə azalması tendensiyası Azərbaycanda da yüksələn xətlə gedir.

Cahiliyyə dövründə qız uşaqları doğulduqdan sonra öldürülürdüsə, indi qız uşaqları ana bətnindəcə məhv edilir. Forma müxtəlif olsa da mahiyyət eynidir.

Bu mövzuya həsr edilmiş, müəllifini unutduğum türkcə dərc olunmuş «Şirin körpə» adlı yazının Azərbaycan variantını oxuculara təqdim edirik. Qız uşağını bətnində məhv etdirmiş ananın əzablı duyğuları yazıda çox təbii və lakonik təsvir edilmişdir.

**Qüdrət SƏMƏDOV.**

# Şirin körpə

Gənc qadın körpənin gözəlliyi qarşısında ovsunlanmış kimi idi. Buruq sarı saçları, iri mavi gözləri zərif burnu və kiçik qırmızı dodaqları nur toruna bənzəyən körpə qadının indiyə qədər gördüyü ən şirin qız uşağı idi. Onun ipək yanaqlarından öpmək və cənnət qoxusunu ciyərlərinə çəkmək üçün əyildikdə bir səs eşidir:

—Toxunma mənə! Məni oxşamağa haqqın yoxdur.

Qadın qorxuyla diksinib ətrafa baxdı. Körpəylə özündən başqa heç kim yox idi. Eyni səsi təkrar eşitdikdə körpəyə baxdı. Aman Allahım!.. Yeni doğulmuş olmasına baxmayaraq danışan o idi.

Körpə:

—Mənə yaxınlaşmağını istəmirəm- deyə davam etdi,- uzaq dur məndən. Qadın bir az özünü toplayıb:—Hər dəfə uşağımız oğlan olur, dedi, onlar da gözəldir, amma qız uşağı başqadır. Buna görə səni öpmək istəmişdim.

—Məni öpə bilməzsən,—deyə ağlamağa başlamışdı körpə. Mənim də səni öpməyim mümkün deyil. Qadın çaşqın halda soruşdu:—niyə? Nə üçün öpə bilmərəm ki?

Körpə hıçqırıqlarla ağlayaraq:—bunun səbəbini yaxşı bilirsən,—dedi. Düşünsən mütləq tapacaqsan.

Qadın nə baş verdiyini götür-qoy edərkən birdən özünə gəldi. Özəl bir xəstəxananın ən lüks otağında uzanmışdı, narkozun təsirindən hələ ürəyi bulanırdı. Ailə dostları olan gənc həkim qadına bir dəstə çiçək uzadıb:

—Gözünüz aydın, xanım—dedi:—əməliyyat müvəffəqiyyətlə keçdi. Həə!.. Doğrudan da qız imiş bətnizdəki körpə...